# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ
# <<AZƏRTERMİNALKOMPLEKS>> BİRLİYİ

AZ 1039, Bakı şəhəri,
Sabunçu rayonu, Maştağa qəsəbəsi,
Zabrat-Maştağa şossesi, sol kənar, 3

Tel.:(+99412) 525-97-28
Faks: (+99412) 525-97-83
E-mail: terminal.umumi.shobe@gmail.com

«04» İyul 2022-ci il

№ 2300-030/001-24/000541

**"Finest Tobacco" MMC-nin**
**baş direktoru Orxan İsmayılova**
**Ünvan: (AZ2016) Gəncə şəhəri,**
**Ozan küçəsi, ev 42**

E-mail: orxan.ismayilov@finesttobacco.az

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ünvanlanmış 24 iyun 2022-ci il tarixli elektron müraciətinizə "Azərterminalkompleks" Birliyində aidiyyət üzrə baxılmışdır.

Məlumat üçün bildirmək istəyirik ki, aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2001-ci il tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydalara əsasən tənzimlənir. Aksizsiz tütün məmulatlarının gömrük hərraclarına çıxarılmasına və satışına yol verilmir. Aksiz markası olmayan və ya saxta aksiz markası ilə markalanmış məhsullar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qaydalarına uyğun olaraq məhkəmənin qərarına əsasən məhv edilir. O cümlədən qeyd edirik ki, gömrük işi sahəsində cinayət işləri və digər hüquqpozmalar üzrə məhkəmənin qüvvəyə minmiş qərarına əsasən müsadirə edilmiş, habelə şəxsin dövlətin xeyrinə imtina etdiyi və dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin açıq gömrük hərraclarında satılması ilə bağlı məsələlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 oktyabr 2012-ci il tarixli 237 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərraclarında satılması Qaydaları"na (bundan sonra –Qaydalar) əsasən tənzimlənir. Bu Qaydaların 1.3.-cü bəndinə uyğun olaraq, gömrük hərraclarında satışa çıxarılan malların ilkin satış qiyməti "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sərbəst (bazar) qiymətlər əsasında müəyyən edilir. Qaydaların 2-ci bəndində malların gömrük hərracına çıxarılması və satılması şərtləri qeyd edilmişdir. Belə ki, malların gömrük hərraclarında satılması üçün Komitənin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və satıcının əməkdaşlarının daxil olduğu 5 (beş) nəfərdən ibarət hərrac komissiyası yaradılır. Satıcı gömrük hərracı vasitəsilə hərraca çıxarılan əmlak haqqında hər növbəti hərrac gününə ən geci 30 (otuz) gün qalmış kütləvi informasiya vasitələrində və Komitənin internet saytında hərracın açıq formada keçirilməsi barədə məlumatı, əmlakın tam adını, yerləşdiyi ünvanı,

malların ilkin satış qiymətini, sifarişlərin qəbulunun başlanma və başaçatma tarixlərini, sifariş və sənəd qəbulu məntəqələrinin ünvanlarını, sənəd qəbuluna məsul şəxsin adını, soyadını, vəzifəsi və əlaqə telefonlarını, hərracda iştirak etmək üçün sifarişlərin qəbulu zamanı tələb olunan sənədləri, hərracın keçirilmə tarixini, vaxtı və ünvanını, hərracda iştirak haqqının məbləğini, əmlakın ilkin satış qiymətinin 5 (beş) faizi həcmində behin məbləğini və həmin məbləğin köçürülməsi üçün müvafiq bank hesabını əks etdirən elan dərc etdirir. Elan dərc edildiyi andan hərracda iştirak etmək hüququnu əldə etmiş şəxslərə satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır. Satışa çıxarılan əmlakla tanış olduqdan sonra hərracın keçirilməsinə 5 (beş) gün qalmış hərraca buraxılmış şəxslər hərracın təşkilatçısına hərracda iştirak edib-etməyəcəkləri barədə öz qərarlarını yazılı surətdə bildirməlidirlər. Sifarişə iştirak haqqının və behin ödənilməsini təsdiq edən ödəmə sənədinin surəti, hüquqi şəxslər üçün dövlət reyestrindən çıxarışın surəti, fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti əlavə olunmalıdır. Hüquqi və ya fiziki şəxsin nümayəndəsi tərəfindən verilən sifarişə müvafiq şəxsin adına verilmiş etibarnamə əlavə edilir.

Bundan əlavə, hərracın keçirilməsi və dövlət mülkiyyətinə keçirilmiş malların və nəqliyyat vasitələrinin təhvil verilməsi şərtləri bu Qaydalarla müəyyən edilmişdir. Gömrük hərracının keçirilməsi ilə bağlı daha ətraflı məlumatı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rəsmi internet səhifəsindən əldə etmək mümkündür.

**"Azərterminalkompleks" Birliyi direktorunun**
**vəzifəsini müvəqqəti icra edən,**
**direktorun müavini,**
**gömrük xidməti polkovniki** **Hüseyn Məsumov**

İcraçı: Elçin İsmayılov
Tel: (012) 525-93-87 (3547)